## ASİYA VƏ AFRİKA XALQLARI ƏDƏBİYYATI

# İkiçayarası mədəniyyətinin Azərbaycan mifologiyasına təsiri

**Səkinəxanım Qurbanlı**
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.

**Annotasiya.** Məqalədə dünyanın ən qədim və ən böyük sivilizasiyalarından olan Mesopotamiya mədəniyyətinin Azərbaycan mifologiyasına təsirindən bəhs edilir. Azərbaycanın qədim dövlət qurumları olan Aratta, Lulubbi, Kuti, Naxç, eləcə də, Manna dövlətinin mifologiyasında və panteonunda Şumerlərin dünyagörüşü ilə oxşarlıqlar nəzərə çarpır. Qədim Şumer mifologiyasının ilahə İnanna, Dumuzi, Anum, Şamaş, Enlil kimi tanrıları, həyat ağacı fiquru, fəsillərin dəyişimi ilə əlaqədar təbiətin ölüb-dirilməsi ritualları, baş örtünməsi, toylar və yaslarla bağlı adət-ənənələri Azərbaycan mədəniyyətində özünəməxsus şəkildə əksini tapmışdır. Eləcə də, bu tədqiqat Şumer və Azərbaycan folklorunda yaradılış, kosmik fəza, dillərin ayrılması, tufan kimi miflər arasındakı bənzər nüansları aşkarlamışdır.
**Açar sözlər:** bütpərəstlik, mif, panteon, Mesopotamiya, adət-ənənə

**Məqalə tarixçəsi:** göndərilib – 04.12.2021; qəbul edilib – 14.12.2021

# Influence of Mesopotamian culture on Azerbaijani mythology

**Sakinakhanim Gurbanli**
Institute of Literature named after Nizami Ganjavi of ANAS. Azerbaijan.

**Abstract.** The article is devoted to the influence of Mesopotamian culture, one of the oldest and largest civilizations in the world, on Azerbaijani mythology. In the mythology and pantheon of the ancient state institutions of Azerbaijan, such as Aratta, Lulubbi, Kuti, Nakhchivan, as well as the state of Manna, there are similarities with the worldview of the Sumerians. The gods of ancient Sumerian mythology, such as the goddess Inanna, Dumuzi, Anum, Shamash, Enlil, the figure of the Tree of life, the rituals of resurrection of nature in connection with the change of seasons, head covering, weddings and mourning traditions are reflected in Azerbaijani culture. This article also revealed similar nuances in Sumerian and Azerbaijani folklore between myths such as creation, space, the separation of languages, and storms.
**Key words:** idolatry, myth, pantheon, Mesopotamia, tradition

**Article history:** received – 04.12.2021; accepted – 14.12.2021

### Giriş / *Introduction*

İnsanı başqa canlılardan fərqləndirən əsas cəhətlərdən biri onun yalnız mövcud olmaqla qalmayıb, həm də öz varlığını, ətraf aləmi dərk etməyə çalışmasıdır. Bu dərketmə prosesi isə özünü insanın kainat, dünya və təbiət haqqındakı ən ümumi baxışlarının toplusu olan mifologiyada əks etdirir. Ədəbiyyatşünas Azad Nəbiyevin dediyi kimi: "Mif hərfi mənada dünyanın və insanın yaranması barədə əfsanələr, erkən etnosların tanıdığı dünyanı idarə edən allahlar, tanrılar, xatunlar haqqında hekayətlər, dünyanın bu günü və sabahı, dağılıb yenidən yaranması barədəki bədii yaradıcılıqdır" [9, s.107].

Hər bir elm sahəsi araşdırılarkən ilk olaraq onun əlifbasından başlanılır. Bu mənada əlifba "A"

hərfi ilə başlayırsa, ədəbiyyat da mif ilə başlayır desək yanılmarıq. Mif təbiət qarşısında aciz qalmış ibtidai insanın dünyanı dərk prosesi olub, hər bir xalqın soy kökünün obrazlı ifadəsi, ibtidai şüurunun təzahürüdür. Bu baxımdan, çox qədim tarixə malik olan ölkəmiz də tarixin və şifahi xalq ədəbiyyatı nümunələrinin izləri ilə zəngindir. Belə ki, arxeoloji tapıntılar əsasında paleolit dövründən etibarən bu ərazilərdə ibtidai insanların məskunlaşdığı məlum olmuşdur. İbtidai təfəkkürə malik bu qədim insanlar ətraflarında baş verən təbiət hadisələrini dərk etməyə çalışmış və özlərinin dünya haqqında ilkin təsəvvürlərini bu yolla təqdim etmişlər. İlkin mifyaratma prosesi nəticəsində ibtidai insanlar təbiəti kəşf etməyə başlamış, ətraflarında gördükləri hadisələrə müəyyən anlamlar yükləmişlər.

## Əsas hissə / *Main Part*

### 1. Miflərin yaranma tarixi və şəraitinə qısa bir nəzər:

Miflər tarixin ilkin dönəmlərində yaşayan sakinlərin cavabını tapmaqda aciz olduqları kainat, kosmos, ətraf mühit, canlı-cansız aləm, təbiət hadisələri, insanın mənşəyi və ölümü ilə bağlı sonsuz sayda sualların və üzləşdikləri problemlərin reallıq və bədiiliyin vəhdəti vasitəsilə təsviridir. Mif, insanın ibtidai şüurunun gerçəkliyi təxəyyül məhsulu olan müəyyən obrazlar, assosiasiyalar, obyektlərə yüklədikləri müəyyən anlamlar və özünəməxsus qavrayışlar vasitəsilə bədii dərk cəhdidir. Miflərin yaranma tarixi haqda professor Qorxmaz Quliyevin dediyi kimi: "Dünyanı bütöv şəkildə ehtiva etməyə çalışan insan bu mifik əfsanə və rəvayətləri bir-birinə calayır, müxtəlif hadisələri bir-birinin vasitəsilə izah edirdi. Bu, mifin özünəməxsus məntiqini müəyyənləşdirir" [9, s.128].

Miflərin yaranmasına səbəb isə gerçəkliyin, həqiqətlərin bilinməməzliyi, insanların məlumatsızlığı, ibtidai insanın idrak vasitələrinin yetərsizliyi, ətraflarında baş verən hadisələrin məntiqəuyğun səbəblərinin izahının mümkünsüzlüyü və rasional dərkin imkansız olduğu belə məqamda gördükləri şeylərə yüklədikləri fantastik yozumlardır. Reallıq və bədii fantastikanın çulğalaşmasından doğan bu cür mifik şərhlər isə öz növbəsində bəşəriyyəti inkişafa aparırdı. Bu barədə filologiya elmləri doktoru İsmayıl Vəliyev də mifoloji tədqiqatlarında qeyd edir: "İlk mifik düşüncə təbiətlə, insanın həyatı, məişəti, sosial mühiti ilə bağlı olmuş və insan təfəkkürünün təkamülünə şərait yaratmışdır" [13, s.3].

Bəşəriyyətin uşaqlıq çağının məhsulu olan miflər bir növ sözlər və cümlələrin yaranması üçün özül rolunu oynayan əlifbanı xatırladır. Belə ki, folklorşünas Ramazan Qafarlının da dediyi kimi: "İnsanın dərk edə bildiyi elə bir problem, gördüyü və duyduğu elə bir varlıq, detal, element yoxdur ki, onun barəsində miflərdə xüsusi yolla, primitiv şəkildə də olsa, nəsə şərh, izahat verilməsin" [8, s.17]. Bu mənada mövcud hər bir mövzuya primitiv formada dəxi olsa toxunmuş miflər sözügedən obyekt və subyektlərin gələcəkdə inkişaf edərək təkamülünə şərait yaratmışdır. Bu haqda ədəbiyyatşünas Oljas Süleymenov da "Az–Ya" adlı kitabında ətraflı şəkildə bəhs etmişdir. Ümumxalq təfəükkürünün məhsulu olan mifik düşüncənin zaman hüdudu qeyri-müəyyəndir. Miflər zaman baxımından bəzən dünya yaranmamışdan öncəsinə, mövcud zamana, yaxud ehtimal edilən gələcəkdən bəhs edə bilir. Məkan baxımından isə mif mənsub olduğu etnosun nisbi dünya kimi qəbul etdiyi ərazini, coğrafiyanı və yaşayış məskənini əhatə edir.

### 2. Azərbaycan mifologiyasına İkiçayarası mədəniyyətinin təsirləri:

Mif mənsub olduğu xalqın tarixini, adət-ənənələrini, dini inanclarını, məişətini təbiiliyini itirmədən özündə saxlayan ən mükəmməl folklor nümunəsidir. Folklorşünas Azad Nəbiyevin dili ilə desək: "Tarix səhnəsində elə məqamlar var ki, xalq özü sıradan çıxmış, ancaq onun ağız ədəbiyyatı yaşamış və onu yaradan xalqın adını tarixə ədəbi həkk etmişdir" [9, s.12]. Belə xalqlardan biri də bu gün dünya elmi üçün çox əhəmiyyətli olan qədim Şumerlərdir. Məlumdur ki, şifahi xalq ədəbiyyatı nümunələrinin əsas xüsusiyyətlərindən olan dildən-dilə ötürülmə və çoxvariantlılığa mif janrında da təsadüf olunur. Belə ki, müxtəlif xalqların mifologiyasına nəzər saldıqda eyni mövzunun müəyyən dəyişikliklərlə təqdim edilən bənzər süjetli versiyalarına tez-tez rast gəlinir. Əlbəttə, məsələyə "ədəbiyyatın gəzəriliyi" (*Teodor Benfey*) kontekstindən nəzər saldıqda, bu, təbii haldır və sözügedən nümunələrin konkret müəllifi olmaması ilə bağlıdır. Şifahi xalq ədəbiyyatının digər janrları kimi mif də

ümumxalq təfəkkürünün məhsuludur və qonşu xalqların, millətlərin münasibətləri zəminində mifoloji düşüncə də qarşılıqlı təsirlərə məruz qalaraq yeni çalarlarla boyanmışdır.

Hələ e.ə. III minillikdə Azərbaycanın ilk dövlət qurumu olan Aratta, eləcə də sonrakı dövrlərdə yaranmış Lulubbi, Turukki, Kuti, Naxç və Gərgərlər qonşu dövlətlərlə sıx əlaqədə olmuş, bir-birlərinə iqtisadi, sosial və mədəni baxımdan qarşılıqlı təsir etmişlər. İlkin dövlətçilik ənənələrini əxz edən bu dövlət qurumlarımız qonşu ərazilərdə yerləşən Şumer, Akkad, Assuriya, Babil kimi dövlətlərlə həm müttəfiq, həm də mübarizə içərisində olmuşdur. Bunu tarixçi Y.Yusifovun qədim Şərq tarixi haqda kitabında tarixi sübutlarla görmək mümkündür: "Yazılı mənbələrdə İkiçayarasının Aratta (Urmiya gölü hövzəsi), Dilmun, Meluhha, Maqan ilə ticarət və mədəni əlaqələri yad edilmişdir" [14, s.45]. Eləcə də dövrümüzə qədər gəlib çatmış "Enmerkar və Aratta hökmdarı" adlı qədim Şumer dastanı da Aratta və Şumer arasında qarşılıqlı münasibətlərin olmasına əyani sübutdur. Hətta mətndən aydın olur ki, Aratta və Şumer arasında dostluq münasibətləriylə yanaşı, rəqabət və kiçik ixtişaşlar da mövcud olmuşdur.

Tarixdən məlum olduğu kimi, yaxın Şərqdə yerləşən dünyanın ən qədim və ən böyük sivilizasiyalarından olan Mesopotamiya (*İkiçayarası*) bir əsrə yaxın müddətdə Kutilərin hakimiyyəti altında olmuşdur. Bu böyük sivilizasiyanın qədim dövlətlərimizə də çox böyük təsiri olmuş, Mesopotamiyanın elmi-mədəni yenilikləri sözügedən ərazilərimizdə də inkişaf etmişdir.

Bu təsir yalnız iqtisadi-sosial baxımdan yox, ədəbi yaradıcılıq aspektindən də özünü göstərməkdədir. Belə ki, tarixi qaynaqlara nəzər saldıqda, Aratta, Lulubbi, Kuti, Naxç və s. kimi dövlət qurumlarının tanrı panteonları ilə Şumer-Akkad panteonları arasında paralellərin olduğu məlum olur. Eyni tarixi dövrdə, qonşu ərazilərdə yaşayan bu xalqların oxşar mifoloji dünyagörüşünə malik olmaları heç də təəccüblü deyil, çünki dünyanın istənilən nöqtəsində mifyaratma prosesi müəyyən bir inkişaf xətti ilə irəliləmişdir. Bu baxımdan qədim dövlətlərimizin Mesopotamiya sivilizasiyası ilə eyniadlı, yaxud eyni xüsusiyyətlərə və təsvirlərə malik tanrılara inanması, ortaq mifik düşüncəyə sahib olması təbiidir. Bununla belə, tarixi tapıntılar bu eyniliklərin heç də olduğu kimi saxlanılmayıb, qədim dövlətlərimiz tərəfindən məxsusi çalarlarla özününküləşdirildiyini də sübut etməkdədir.

Sözügedən tarixi dövr haqqında məlumat əldə etdikcə, aydın olur ki, o zaman hər bir şəhərin öz tanrısı tərəfindən qorunması inancı mövcud olmuşdur. Qədim Aratta dövlətində bu mühafizəkar tanrı ilahə *Lama* idi [2, s.66]. Aratta əhalisinin tez-tez qurbanlar verdikləri qoruyucu ilahə Lama şumer mifologiyasındakı ilahə Ninhursaq, yunan mifologiyasındakı ilahə Afina ilə bərabərləşdirilir. Lama baş ilahə sayılırdı və ana torpağın simvolu hesab edilirdi. Lamanın Aratta panteonunda tanrıların atası hesab edilən baş tanrı Anumun qızı olduğu da hesab edilir. Göylərin hökmdarı, səma tanrısı olan *Anum* yunan mifologiyasındakı Kronun bənzəridir. Kutilər Şumer panteonundakı tanrı Anı özünküləşdirərək Anum etmiş və bir çox şəhərlərində ona sitayiş etmişlər [2, s.75]. Anumun öz gücünü və təsirini itirməsi nəticəsində baş tanrı ünvanını almış oğlu *Enlil* isə panteondakı tanrıların ən güclüsüdür. Hava, külək və fırtınaları idarə edən tanrı Enlil ilk insanları yaradaraq sivilizasiyalar dönəmini də başlatmışdır. Mütləq güclə eyniləşdirilməsinə baxmayaraq, Kutilər Enlilin bəzi acizlikləri olduğuna da inanırdılar. Enlilin qardaşı su, zəka və hiyləgərlik tanrısı *Enki* idi. Humanist və həmişə insanlara yardım edən tanrı kimi tanınan Enki inanışa görə tanrıların bütün sirlərini də bilirdi. Panteonda mühüm yer tutan digər bir ilahə Anumun qızı, Enlil və Enkinin bacısı ilahə *İnanna* idi. Bərəkət və məhsuldarlıq ilahəsi olan İnanna yunan mifologiyasındakı Afrodita ilə bənzərdir. Məhəbbət və bərəkət ilahəsi olaraq Arattada ilahə İnannaya, Lulubidə isə İnannanın Akkaddakı adı olan *İştara* sitayiş edilirdi [2, s.72]. Xalqına bolluq gətirmək məqsədilə ilahə İnanna çobanların tanrısı *Dumuzi* ilə evlənmişdir. Ev heyvanlarının, çobanların, çöl həyatının, əkinlərin və məhsuldarlığın qoruyucusu kimi görülən Dumuzi sonralar əski türklərdə Təmmuz xan adı ilə tanınırdı. Hazırda Anadolu bölgəsində işlədilən damazlıq sözü də Dumuzinin adıyla əlaqəlidir və Tamız Xan üçün ayrılan heyvan mənasını verir.

"Enmerkar və Aratta hökmdarı" adlı qədim Şumer dastanında verilmiş Aratta hökmdarının nitqindən də sübut olunur ki, onlar həqiqətən İkiçayarası panteonundakı İnanna, Lama kimi tanrılara sitayiş etmişlər: "Mən, ali kahin-hökmdar, təmiz əlin (İnannanın) təyin etdiyi adamam… Dağ – məharətli qəhrəmanlarla doludur. O öz evinə yollanan axşam şəfəqidir, onun üzündə qaranlıq yayılır. O, üzü şölə ilə dolu olan səmaya qalxan aya bənzəyir. Pak adət-ənənə ölkəsinin lütfkar Laması (Aratta

ilahəsi) – Arattanın tacı, şəfəqli səma tacı (İnanna) kimi Arattaya yol göstərdi, mən öz əzəmətimi həqiqətən dərk etdim" [10, s.91-92].

Tarixi qaynaqlar İlahə İnanna və Dumuzinin bu ərazilərdə çox əhəmiyyətli fiqurlar olduğunu göstərir. Bunun əsas səbəbi isə bu iki tanrının böyük məhəbbəti və insanlığın rifahı üçün etdikləri əməllərdir. İlahə İnanna onlar üçün sevgili yoldaşı – yer üzündə bolluq-bərəkət və məhsuldarlıq tanrısı Dumuzi üçün ölümü gözə alaraq yeraltı səltənətinə enən fədakar ilahə idi. Bu haqda "İnannanın ölülər diyarına enişi" mifində qeyd edilmişdir: İşığın, məhəbbətin və həyatın hakimi İnanna yeraltında dustaq olan sevgilisi Dumuzini xilas etmək üçün ölülər diyarına enməyə qərar verir. Bu geri dönüşü olmayan diyarın başçısı İnanna bacısı və əsas düşməni olan Ereşkiqal idi. Ondan nifrət edən bacısının onu öldürməyindən ehtiyat edən müdrik ilahə səfərindən öncə vəziri Ninşubura üç gün içində qayıtmayacağı təqdirdə su tanrısı Enkidən kömək istəməsini buyurur. Bu zaman bütün ölümlülər kimi ilahə İnanna da çılpaq soyunmalı və yeraltının yeddi qapısının hər birindən tək-tək keçməli olur. Nəhayət, İnanna bacısının yanına çatır və Ereşkiqalı taxtında oturarkən tapır. Sanki bu anı səbrsizliklə gözləyirmiş kimi Ereşkiqal və əmrindəki yeddi hakim ölüm baxışlarını İnannaya döndərib zirvələrin ilahəsini öldürür. İlahə dərhal cəsədə çevrilir və onu kağıza bükürlər. İnannadan üç gün xəbər gəlmədiyini görən vəziri dərhal köməkpərvər Enkinin yanına qaçır. Enki sevimlisi İnannanın başına gələnləri eşidən kimi, dırnaqlarının diblərindəki kirdən Kurqarru və Kalaturru adında iki cinsiyyətsiz varlıq yaradıb onları həyat yeməyi və həyat suyuyla birlikdə yeraltına göndərir. Kurqarru və Kalaturru yemək və suyu İnannanın cansız bədəninə altmış dəfə tökür və İnanna dərhal canlanır [6, s.153].

Bəzi mənbələrdə İnanna ilə qarışdırılan ay tanrısı Nanna Lulubilərdə *Sin* adıyla tanınır [2, s.72]. Cəhənnəmdə doğulduğuna inanılan Sin yeraltı dünyasında ölüləri cəzalandırırdı. Tale tanrısı kimi də tanınan Sin əsrlər ərzində mövcudluğunu qoruya bilmiş, gələcək Qafqaz Albaniyasında ay ilahəsi kimi tanınacaq Selenanın da mənbəyi olmuşdur [2, s.176]. Tanrı Sin Lulubilərdə *Şamaş*, Naxçlarda Utu adı ilə tanınan günəş tanrısının da atasıdır. İlahi ədalətin tanrısı kimi də tanınan Şamaşın səhərlər şərq qapısından keçərək yer üzünə endiyi, hər şeyi isitmə vəzifəsini tamamladıqdan sonra ölülər diyarının qapısından – qərbdən çıxdığına inanılırdı. İnsanları tanrıların qəzəbindən qoruyan Şamaş sonralar əski türklərdə Şivini adı ilə tanınmağa başladı.

Sonrakı dövr Manna dövlətinin hökmranlığı dönəmində də Mesopotamiya təsiri özünü qorumuş, eləcə də qonşu Assur və Urartu mifologiyalarının izləri görülmüşdür. Tarixi qaynaqlardan Assusiyanın qoruyucu tanrısı Assaraya Mannada *Aşşura* adı ilə sitayiş edildiyi məlum olur. Mannalılar ölkələrini Aşşuranın mühafizə etdiyinə inanır və ona çoxlu qurbanlar verirdirlər. Eləcə də, Urartu panteonunun baş tanrısı olan *Haldi* də Mannalıların mühüm sitayiş obyektlərindən idi. Manna əhalisi müharibə tanrısı Haldini məmnun edəcəkləri təqdirdə döyüşlərdə zəfər qazanacaqlarına inanırdılar. Haldi aslan üzərində ayaqda duran qanadlı tanrı şəklində təsvir edilirdi. Mannalıların sitayiş etdikləri digər bir tanrı isə Assurlarda Hadad adıyla bilinən hərb və tufan tanrısı *Adad* idi [1, s.177]. Fırtına, ildırım və yağış tanrısı kimi də tanınan Adad əlində topuz və şimşək, başında buynuzlu dəbilqəsi ilə saqqallı formada təsvir edilirdi. Simvolu öküz olan tanrı Adad Anadolu Hetlərində Teşuba adı ilə tanınırdı. Mannalıların sitayiş etdikləri, qurban verdikləri bu tanrılar təbiətin xeyirxah qüvvələri hesab olunurdu.

Tarixi qaynaqlarda rast gəlinən əsas mifoloji fiqurlardan biri ölümsüzlük ağacı hesab edilən Dirilik ağacıdır (*Huluppu*). Digər adı Həyat ağacı olan bu mifik fiqurun əsasında palıd ağacı dayanır və bu inanışa ilk dəfə Şumerlərdə rast gəlinmişdir. Bununla belə, Mannanın qədim əhalisinin etiqadlarında da dirilik ağacına sitayiş əsas yer tuturmuşdur. Bu inanışa Həsənli, Mərlik, Ziviyədə tapılmış qədim Manna əhalisinin hazırladıqları incəsənət nümunələrində rast gəlinir. Təbiətin ölüb dirilməsi, qədim əhalinin əhyaya və axirətə inamını əks etdirən bu fiqura sitayiş aşkara çıxarılmış qızıl pektoralların yuxarı registrində stilləşdirilmiş Dirilik ağacı təsvirlərində əks olunmuşdur [1, s.177]. İnanışa görə, bir gün Fərat çayının sahilində yetişən Dirilik ağacını cənub küləyi kökündən sökür. İlahə İnanna bunu görüb ağacı öz bağçasına gətirib əkir. İlahənin məqsədi ağacın kötüyündən stul və çarpayı düzəltmək idi, lakin ağacın təpəsinə İmduqud quşu, ortasına Lilit adlı bir cin və kökünə ilan yuva qurur. Bu səbəbdən İnanna ağacı kəsə bilmir və günəş tanrısı Utuya müraciət edir. Utudan qarşılıq ala bilməyən İnanna qardaşı kimi gördüyü Gilqamışdan yardım istəyir. Gilqamış ağacı kəsib kötüyünü

ilahəyə verir, ilanı öldürür, qartalı dağa, Liliti isə çölə qovur. İnanna isə Gilqamışa qəhrəmanlığı qarşılığında mükafat olarak bir ədəd baraban və baraban çubuqları (*pikku və mikku*) hazırlayaraq verir [6, s.69]. Yaradılış haqqında olan bu mifdə həyat ağacı dünyanı simvolizə edir və sonralar bu fenomenə bir çox digər mədəniyyətlərdə rast gəlinir.

Bununla yanaşı, dirilik ağacı və ya həyat ağacı kimi müqəddəs ağac motivləri hazırki bir çox adət-ənənələrimizdə də öz aktuallığını qorumaqdadır. Buna nümunə olaraq, qəbiristanlıqlarda sidr ağacının əkilməsini göstərmək olar. Belə ki, bərəkət tanrısı Dumuzi haqqındakı mətnlərdə onun sıx meşələrdə parlayan bir sidr ağacı olduğu və təpəsinin günəşə qədər uzandığı deyilir. Qədim məbədlərdə Dumuzinin simvolu kimi sidr ağacı əkilirdi. Günümüzdə qəbiristanlıqlarda sidr ağaclarının olmasının səbəbi həmişəyaşıl bu ağacın əbədiliyi simvollaşdıran həyat ağacı hesab olunmasıdır. Eynən sidr ağacı kimi Dumuzi də gerçək anlamda heç vaxt ölməz və əbədiyyətə sahibdir. Tanrı Dumuzi heç zaman ölməsə də dərin bir yuxuya daldığı dönəm vardır. İnanışlara görə, bu yuxu gecənin gündüzə qalib gəlməyə başladığı tarixə uyğun gəlir. 21 dekabrdakı ən uzun gecənin keçməsi ilə 3 gün sonra gündüz uzanmağa başlayır və bu dərin yuxu bitir. Bu səbəbdən xalq arasında 25 dekabr bayram kimi qeyd edilir və yeni il ağacı kimi tanınan bərəkətin simvolu olan həmişəyaşıl sidr, yaxud şam ağacı bəzədilir. Ağacdakı bəzəklər müxtəlif növ meyvələr və bərəkəti simvolizə edir, ağacın özü isə tanrı Dumuzi hesab edilirdi [16].

Qeyd edilənlərlə yanaşı, paralelliklərin mövcud olduğu bir neçə Şumer və Azərbaycan miflərinə nəzər salaq. İlk növbədə, qeyd etmək lazımdır ki, Şumerlərdə "Yaradılış" haqqındakı miflərdə hər şeyin ilk əvvəl su olduğu qeyd olunur. "Başlanğıcda ilkin dəniz var idi. İlkin dəniz göy ilə yerin birliyindən ibarət olan kosmik dağı ərsəyə gətirdi" [6, s.83]. Göründüyü kimi, Şumerlər ilkin səbəb və ilk hərəkətəgətirici qüvvə olaraq suyu görürdülər.

Kosmoqonik miflərimizə nəzər saldıqda oxşar mənzərə ilə rastlaşırıq: "Lap qabaqlar Allahdan başqa heç kim yox imiş. Yer üzü başdan-ayağ su imiş. Allah bu suyu lil edir, sonra bu lili qurudub torpaq edir" [4, s.26]. Başqa bir nümunəyə diqqət edək: "Allah birinci dəryayı yaratdı, bahalı daşlar yaratdı bu dəryada. Sonra göyü yaratdı. Dəryadakı daşlardan ay-ulduzları yaratdı" [4, s.26]. Nümunələrdən aydın olur ki, qədimdə xalqımız suyu ilkin səbəb saymış, hər şeyin ondan törədiyini düşünmüşlər. Nəzərə alsaq ki, Azərbaycan coğrafi cəhətdən bol şirin su ehtiyatları olan ərazidə yerləşir, bu mənada, qədim insanların suyu başlanğıc maddəsi kimi hesab etmələri təbiidir. Şərqdə Xəzər dənizi, Araz, Kür kimi iri çaylar və çoxsaylı digər çaylar və göllərlə əhatələnmiş bu ərazidə ibtidai insanların həyati tələbatlarından olan bol şirin su ehtiyatları və kənd təsərrüfatına yararlı su qaynaqları olmuşdur. Bu səbəbdən su yüksək tutulmuş və müqəddəsləşdirilmişdir.

Əvvəllər yerlə göyün bir olub, sonradan aralandıqları fikri də Şumer və Azərbaycan mifologiyasında rast gəlinən bənzər dünyagörüşüdür. Dövrümüzə qədər gəlib çıxmış Şumer tabletlərində bu haqda şeir parçaları tapılmışdır:

*"Göy yerdən uzaqlaşdıqdan sonra,*
*Yer göydən ayrıldıqdan sonra,*
*İnsanın adı qoyulduqdan sonra;*
*An göyü ələ keçirdikdən sonra,*
*Enlil yeri ələ keçirdikdən sonra."* [6, s.83]

Bu şeirdən məlum olur ki, hava tanrısı Enlil yerdən göyü ayırır və atası An göyü, Enlil isə anası Ki ilə birlikdə yeri alır. Eləcə də Azərbaycan mifologiyasındakı nümunələrdə bu nüansa rast gəlinir: "Allah adamları yaratdı. İnsanlar başladı bir-birinə pislik, paxıllıq etməyə. Bunu görəndə Göy acıqlanıb yerdən aralandı" [4, s.26]. Başqa bir nümunəyə diqqət yetirək: "Qabaqlar Göy Yerə yaxın idi. Adamlar bir-birini öldürüb, bərəkətin qədrini bilmirdirlər. Bunu görəndə Tanrının qəzəbi tutdu, Göyü Yerdən uzaqlaşdırdı" [4, s.28]. Təbiət qarşısında aciz qalmış insanın yerlə göyü sonradan ayrılmış hadisə kimi təsəvvür etməsi təbii olub, yalnız bəzi xalqların mifologiyasında yer alması baxımdan böyük maraq kəsb edir.

Qədim insanları maraqlandıran əsas məsələlərdən biri də insanların fərqli dillərdə danışması olmuşdur. Bu səbəbdən öz miflərində bu problemə işıq salmış və ilkin təsəvvürlərinə uyğun olaraq mənalandırmışlar. Şumerlərin inancına görə, əvvəl vahid dil olmuş, lakin tanrı Enlili qısqanan Enkinin ucbatından insanlar arasında ünsiyyət qopuqluğu, dillərin qarışması baş vermişdir:

*"Bütün kainat, üzərlərinə titrənən xalqlar,*
*Enlillə tək dildə danışarmışlar.*
*Amma sonra, cürətli başçı, cürətli şahzadə, cürətli hökmdar Enki*
*Ağızlarındakı sözü dəyişdirdi, çəkişmə saldı,*
*O zamandan bəri bir olan insanın danışmağına."* [6, s.12]

Milli mifologiyamızda bu məsələyə özünəməxsus şəkildə toxunulmuşdur: "Adəmlə Həvvanın qırx oğlu olur. Onlar bir-biri ilə yola getmirlər. Adəm ata oğullarını qarğıyır, deyir, sizi görüm bir-birinizin dilini bilməyəsiniz! O vaxtdan millətlər bir-birinin dilini bilmir" [4, s.28].

İlin müəyyən vaxtları çayların, göllərin, dənizlərin yağıntılar nəticəsində səviyyəsinin artması və böyük daşqınların olması da insanları narahat edən məsələlərdən başlıcası olmuşdur. Tufan mövzusu şumerlərin məşhur abidəsi "Gilqamış dastanı"nda yüksək bədiiliklə əks olunmuşdur: "İnsanlar o qədər çoxalmışdı ki, tanrılar onların səs-küyündən yata bilmirdilər. Bunu görən dörd böyük tanrı bu insanları tufan ilə yox etməyə qərar verirlər. Humanist tanrı Enki yaratdıqları insanlara qıya bilmir və Utnapiştimə bir gəmi düzəltməyini və ailəsini, heyvanlarını götürüb getməyi tapşırır. 6 günlük dəhşətli tufandan sonra 7-ci gün gəmi Nisir dağına oturur və onlar xilas olmağı bacarır" [6, s.49].

Azərbaycan mifologiyasında da təbiətin daşqın kimi şıltaqlıqları haqda oxşar motivlər öz əksini tapmışdır: "Dünyanın üzünü su alanda Allahdan səda gəlir ki, ey Nuh, bu gəmini sənə verdim, özünü xilas elə. Nuh peyğəmbər gəmiyə minir. Ağrı dağına pənahlanır. Allahdan səda gəlir ki, ey Nuh, Yer üzündə səndən başqa heç kim qalmayıb. Sənə bir qadın göndərirəm, Yer üzündə insan nəslini artır. Bütün adamlar Nuh peyğəmbərlərlə o qadından əmələ gəlib" [4, s.44].

**3. İkiçayarası mədəniyyətindən qaynaqlanan mifoloji dünyagörüşünün milli adətlərimizdə yeri:**

Qeyd edilənlərlə yanaşı, qədim Azərbaycan mifologiyasına Mesopotamiya mədəniyyətinin böyük təsiri olduğunu əsaslandırmaq üçün hazırda öz aktuallığını qoruyan bir neçə adət-ənənəmizə nəzər salaq.

İlk olaraq, qeyd etmək lazımdır ki, Zərdüştlərdən gəldiyi iddia edilən Novruz bayramı ənənəsi daha da qədimlərdən – qədim Şumer inanclarından gəlmişdir. Belə ki, yuxarıda qeyd etdiyimiz kimi, qədim dövlət qurumlarımızda sitayiş edilən Şumerlərin ən məşhur tanrısı olan Dumuzi yəni Təmmuz bərəkət və günəş tanrısı idi. Eləcə də, Dumuzi ilə yanaşı, bərəkət, torpaq və ay ilahəsi İnanna idi. Bu iki böyük bərəkət qüvvəsi xalqlarına daha da bolluq gətirmək məqsədilə müqəddəs evlilik həyata keçirir. Qədim inanclara görə isə soyuq və çətin keçən qışın ardından baharın gəlişi ilə hər il 21 Mart tarixində Dumuzi və İnanna yenidən evlənir. Bu müqəddəs evlilik qışın bitişini, torpaqdakı bərəkətlənməni simvolizə edir və hər il bu tarixdə əhali tərəfindən qeyd edilirdi. Eyni zamanda, 21 Mart gündüz və gecənin bərabərləşdiyi tarix idi. Bərəkət və günəş tanrısı Dumuzi gündüzü, ay ilahəsi İnanna isə gecəni simvollaşdırırdı və gecə ilə gündüzün qovuşmasını göstərirdi. Dumuzi və İnannanın birləşməsiylə dünyaya bolluq, bərəkət və yaşıllıq gəlir, heyvanlar balalayırdı. Qədim inanca görə, atəş günəşin simvolu olduğundan, Dumuzi ilə İnannanın evliliyinin qeyd olunduğu bu bayramın ritualı odun üstündən tullanmaq idi. Hələ eramızdan 4000 il əvvəl qeyd olunan bu evlilik Anadolu və Orta Asiyada yayılaraq Novruz halını alıb daha da zənginləşmişdir [3, s.81]. Bu haqda professor Cəlil Nağıyev də "Qədim Şərq ədəbiyyatı tarixi" kitabında qeyd etmişdir: "Bu tanrı (Dumuzi) haqqında olan əsatir süjetləri bu gün bizə məlum olan Novruz bayramı, səməni və digər yaşıl bitkilərlə bağlı olan kultlarla əlaqədardır" [10, s.68].

Toy məclislərimizin sevimli adət-ənənələrindən biri olan gəlin otağının bəzədilməsinin də kökü çox qədimlərə dayanır. Belə ki, hələ Azərbaycanın ən qədim dövlət qurumlarının mövcudluğu dönə-

mində Mesopotamiya mədəniyyətinin təsiri ilə bu adət formalaşmış və zamanla daha dərin kök salmışdır. İnanışa görə, İnanna-Dumuzi müqəddəs evliliyi mərasimindən əvvəl ilahə İnanna yuyunar, anası ilə danışaraq ondan məsləhətlər alar, qapı arxasında dayanıb hədiyyələrin gəlişini gözləyərdi. Bundan sonra gəlin otağı hazırlanar və cehizlər qonaqlara göstərilərdi. Bütün bu hazırlıqlar tamamlandıqdan sonra Dumuzinin içəri girməyinə icazə verilərdi. 6000 illik tarixə malik bu toy adəti İkiçayarası ərazidə, ətraf bölgələrdə və Anadoluda yayılmış və bu formada da davam etmişdir [3, s.81].

Hazırda dinimizdə hökm sürən donuzun haram olması inancının da tarixi Dumuzunin adı ilə bağlıdır. Tarixi qaynaqlarda Dumuzinin adının Təmmuz, Tammız, Dumuzu və Domuzi kimi formalarda keçdiyi məlumdur. İnanışa görə Dumuzinin sonrakı bir versiyası olan Adonis vəhşi bir donuz tərəfindən qətlə yetirilir. Donuzu mifoloji dünyagörüşündə günahkar, dinlərdə haram qılan şüuraltında yatan "Tanrı qatili" sifətidir. Eləcə də, iqtisadi cəhətdən donuzun kiçikbaş heyvanlar kimi köç edə bilməməsi və dövrün şərtlərinə uyğun olaraq yay aylarında ətinin istidən tez xarab olması da bu səbəblərə daxildir [15].

Ən məşhur xalq inanclarımızdan olan duza qədim Şumerlər də sitayiş etmiş və onu canlı varlıq hesab edirmişlər. Hazırda Azərbaycanda üzərlik və duzla müəyyən dualar oxuyaraq bəd nəzərdən xilas olmaq inancı xalq arasında geniş yayılmışdır. Eynilə bizdə olduğu kimi, şumerlər də duzu cadupitidən, gözdəymədən, tilsimdən qorunmaq üçün istifadə edir və dar ayaqda insanın dostu qismində onu köməyə çağırırdılar:

*"Bəd ovsunlarla mən bağlanmışam,*
*Bəd fitnə-fəsadlara düçar olmuşam!*
*Duz, qurtar məni bu vəsvətədən, aç mənim ovsunlarımı!*
*Qır, dağıt bu cadu-pitini!"* [10, s.63]

Süfrələrimizin tacı, bərəkətli nemətimiz çörəyin müqəddəsliyi də Mesopotamiyadan gəlir. Dumuziyə sitayiş edən bu insanlara görə, çörək çox müqəddəs idi. Belə ki, buğdanın toplanması və üyüdülməsi vaxtı onlar ağlayardı. Çünki bu tarixlər Dumuzinin dərin yuxuya daldığı günlərə düşürdü. İnanclarına görə, çörək Dumuzinin əti idi. Çörək onlar üçün əsas dolanışıq qaynağı idi. Bu səbəbdəndir ki, bugün Anadolu ərazisində və ölkəmizdə hələ də çörək yerə düşdüyü vaxt öpülür və başa qoyulur. Çörək və buğda qırıntısına basmağın böyük günah olduğuna inanılır və çörəyi bıçaqla kəsmirlər. Yeri gəlmişkən, çörəyin Dumuzinin əti olduğuna inanıldığı kimi, şərab da sülh və şərab tanrısı Dionisin qanı hesab edilirdi. Sonralar xristianlıqda rast gəlinən Yevxaristiya inanışı da məhz sözügedən səbəblərlə bağlıdır. Həvari Pavel Korinflilərə 1-ci Məktubda bu haqda yazır: İsa ələ verildiyi gecə çörək götürdü və şükür edib, onu parçaladı və dedi: "Alın, yeyin. Bu, Mənim sizin üçün qırılan bədənimdir; bunu Məni anmaq üçün edin". Şam yeməyinin ardınca isə şərabla dolu kasanı götürüb dedi: "Bu kasa Mənim qanımla gerçəklənən Əhdi-Cədiddir; bunu içdiyiniz hər zaman, Məni anmaq üçün edin" [5, 11:23-25] .

Hazırki üç böyük müqəddəs dində keçən baş örtünməsi adətinin də kökü qədim Şumerlərə dayanır. Şumerlərdə evlilik yaşına çatmış, evlənə biləcək qadınları digər – evli, dul qadınlardan ayırmaq məqsədilə başlarının bir şalla örtülməsi məcburi idi. E.ə. 1500-cü illərdə Assuriya kralı evlənə biləcək qadınların yox, əksinə, evli və dul qadınların örtünməsini məcbur edir [3, s.29].

## Nəticə / *Conclusion*

Ümumiyyətlə, ədəbi nümunələrin təhlili göstərir ki, milli mifologiyamızın formalaşmasında yerli meyillərlə yanaşı, qədim zamanlardan e.ə III əsrə qədər şumer, eləcə də onun davamı olaraq yunan, e.ə III əsrdən eramızın 50-ci illərinə kimi Zərdüştlük, 50-ci illərdən VII əsrə kimi Xristianlıq, VII əsrdən İslam və ən əsası qədim İskitlərdən başlayaraq XI əsrdə Oğuzların Azərbaycan ərazisinə köçünə kimi türk xalqlarının təsiri əhəmiyyətli yer tutmaqdadır. Dövrümüzə gəlib çıxmış tarixi-arxeoloji tapıntılar üzərindəki təsvirlər və mətnlər isə bu xalqların təsiri içərisində ilkin mərhələni İkiçayarası mədəniyyətinin təşkil etdiyini maddi mənbələr əsasında əyani şəkildə sübut edir. Tədqiqatla-

rımız əsasında Mesopotamiya mədəniyyətinin qədim Azərbaycanda mifoloji dünyagörüşünün, panteonunun və miflərinin formalaşmasında böyük rol oynadığı nəticəsinə gələ bilərik. Beləliklə, yuxarıda sadalanan tapıntılar və göstərilən nümunələr əsasında həqiqətən də İkiçayarası mədəniyyətinin Azərbaycan mifologiyasına təsir etdiyi qənaətinə gəlirik.

**Ədəbiyyat / *References***


5. Azərbaycan tarixi (7 cilddə), I cild. Bakı: Elm, 2007.
6. Bünyadov Z, Yusifov Y. Azərbaycan tarixi. Bakı: Çıraq, 2007.
7. Çığ M.İ. Kuran, İncil ve Tevrat'ın Sümer'deki Kökeni. İstanbul: Kaynak Yayınları., 2013.
8. Əsatirlər, əfsanə və rəvayətlər. Bakı: Şərq-Qərb, 2005.
9. İncil. Yeni Antlaşma. İstanbul: Yeni Yaşam Yayınları, 2008.
10. Kramer S.N. Sümer Mitolojisi. İstanbul: Kabalcı Yayınları, 1999.
11. Kramer S.N. Tarix Şumerdə başlayır. Bakı: Mütərcim, 2012.
12. Qafarlı R. Mifologiya, I cild. Bakı: Elm və təhsil, 2015.
13. Quliyev Q. XX əsr Amerikan ədəbiyyatşünaslığında aparıcı cərəyanlar. Bakı: Çaşıoğlu, 2011.
14. Nağıyev C. Qədim Şərq ədəbiyyatı tarixi. Bakı: Asiya, 2009.
15. Nəbiyev A. Azərbaycan xalq ədəbiyyatı I kitab. Bakı: Çıraq, 2009.
16. Süleymanov O. Az –Ya. Bakı: Şərq-Qərb, 2007.
17. Vəliyev İ. Mif: keçmişdən gələcəyə. Bakı: Nurlan, 2013.
18. Yusifov Y. Qədim Şərq tarixi. Bakı: Şərq-Qərb, 2007.
19. https://www.youtube.com/watch?v=HOpH0_JUIAw
20. https://turandursunislam.wordpress.com/2011/12/04/sumer-dininin-seruveni-gonul-tekine-saygiyla/


## Влияние месопотамской культуры на азербайджанскую мифологию

**Сакинаханум Гурбанлы**
Институт литературы имени Низами Гянджеви НАНА. Азербайджан.

**Резюме.** Статья посвящена влиянию месопотамской культуры, одной из древнейших и крупнейших цивилизаций в мире, на азербайджанскую мифологию. В мифологии и пантеоне древних государственных учреждений Азербайджана, Аратты, Луллуби, Кути, Нахчывана, а также в государстве Манна есть сходство с мировоззрением шумеров. Боги древней шумерской мифологии, такие как богиня Инанна, Думузи, Анум, Шамаш, Энлиль, фигура древа жизни, ритуалы воскрешения природы в связи со сменой времен года, головные уборы, свадебные и траурные традиции нашли отражение в азербайджанской культуре. Это исследование также выявило схожие нюансы в шумерском и азербайджанском фольклоре между мифами, такими как сотворение мира, космос, разделение языков и штормы.
**Ключевые слова:** идолопоклонство, миф, пантеон, Месопотамия, традиция